**Energetika Nazirliyində etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə**

**2022-ci il üzrə hesabat**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 1.9-cu bəndində göstərilən dövlət orqanları tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması tədbirinin icrası ilə bağlı Energetika Nazirliyində aşağıdakı işlər həyata keçirilmişdir.

2022-ci il ərzində Energetika Nazirliyində aparılmış 3 xidməti araşdırmanın nəticəsi olaraq Azərbaycan Respublikası Əmək Məcəlləsinin 186-cı maddəsinin 3-cü hissəsinə əsasən Nazirliyin 6 əməkdaşına yazılı xəbərdarlıq, 1 əməkdaşına isə şifahi xəbərdarlıq edilmişdir.

2022-ci il ərzində Energetika Nazirliyində heç bir əməkdaşa intizam tənbehi tədbiri tətbiq olunmamışdır.

Eyni zamanda, etik davranış məsələləri ilə bağlı maarifləndirmə işlərinin aparılması məqsədilə Energetika Nazirliyi tərəfindən 2022-ci il 17 may tarixində Energetika Nazirliyi və Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının birgə təşkilatçılığı ilə "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda onlayn təlim, 2022-ci il 16 dekabr tarixində "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda vebinar keçirilmişdir.